Azərbaycan Yazıçılar Birliyi
# Ədəbiyyat Qəzeti
www.edebiyyatqazeti.az
20 noyabr 2021-ci il. Şənbə № 46 (5332) 1934-cü ildən çıxır www.ayb.az Qiyməti 40 qəpik



## Sakın kader deme; kaderin üstünde bir kader vardır!

### Sezai KARAKOÇ

**İkinci Yeninin mədəni universumunda misilsiz improvizələr edən böyük şair Sezai Karakoç dörd gün əvvəl dünyasını dəyişdi. Türk poeziyasının ən gözəl eşq şeirlərindən birini - "Monna Roza"nı 18 yaşında yazmışdı... Sonra irfana yönəldi. Cemal Süreya demişkən, Mehmet Akiflə Nəcib Fazil Kısakürəyin mənəvi görüntüsünü iç-içə keçirin, bir Sezai Karakoç portreti yaranar. Bu qədər böyük idi, yəni. Neçə onillər öncə "Sevgili... Ey sevgili... En sevgili"yə xitabən "uzatma dünya sürgünümü benim" düşüncəsinə adlamışdı... O düşüncənin kainatında yenə də Cemal Süreya demiş, şəmsiyyəsiz-çətirsiz uçurdu. "Şam çarşılarında Şəms alındı Mevlanadan, kendisinə Məsnəvi verildi" deyə xəbər gətirən "Xızırla qırx saat" da onundur. O qədər böyük idi ki, kiçik bir Anadolu qəsəbəsinə Avropanın bütün estetik çevrəsini sığışdıra bilirdi. Haldan-hala düşdükcə antik Assur şəhərinə çevrilən Anadolu qəsəbəsində "Kafkanı gəmirən, Kamyunu rahatsız edən, Sartra zaman-zaman qorxu yaşadan, Haideggeri düşündürən, Kerkeqoru böhrana salan, Folkneri sərxoş edən, Van Qoqu Van Qoq, Şaqalı Şaqal edən" dünyanın modern şeirlərini yazırdı. Modernist Avropa şairlərinin böhrandan, tənhalıqdan, qürubdan, zavaldan, məchuldan, sosial qaranlıqdan, "ümidsizlikdən qurtulmanın bir yolu" kimi gördükləri ölümün yerinə, Sezai Karakoç din duyğusunun ilkinliyini, neotomizmi qoydu. Türk şeirinin modern məkanındakı ruhsal axış, yəni irfani anlamların modern izharı onun yaradıcılığında baş verdi. Bu mənada Sezai Karakoç modern türk şeirində mübhəmliyi, qapalılığı, gizliliyi, din duyğusunu dərinləşdirənlərdən biri, bəlkə də, birincisi idi.**

**Ruhu şad olsun!**

**Azər TURAN**

## Rafiq Tağısız on il, yaxud gözlədiyim zəng...

## VARİSLƏR

